# AZƏRBAYCANLA TÜRKİYƏNİN TƏHSİL VƏ RİYAZİ TƏHSİL SAHƏSİNDƏ BİRGƏ FƏALİYYƏTİ VƏ İNNOVASİYALAR

Günəş VƏLİYEVA*

**Xülasə:** Məqalədə iki qardaş və dost ölkə olan Azərbaycanla Türkiyə arasında təhsil və xüsusilə riyazi təhsil sahəsində əməkdaşlıqlar, bu əməkdaşlıq nəticəsində riyazi təhsildə əldə edilən və uğurla tətbiq olunan yeniliklər, yenilikçi yaxınlaşmalar araşdırılmışdır. Elm və təhsilin xüsusi önəmi vurğulanmış və müasir dövrümüz üçün riyazi təhsilin əhəmiyyəti qeyd olunmuşdur. Türkiyə ilə Azərbaycan arasındakı təhsil sahəsində razılaşmalar və hər iki tərəfin üzərinə götürdüyü öhdəliklər qeyd olunmuşdur. Bundan əlavə ölkəmizdə uğurla fəaliyyət göstərən bir sıra türk təhsil müəssisələrinin adları çəkilmiş, onların təhsilimizə verdiyi töhfələr öz əksini tapmışdır. Təhsildə riyazi təhsilin xüsusi önəmi vurğulanmış, riyazi təhsil sahəsində Türkiyə ilə ortaq fəaliyyətlər, xüsusilə STEAM layihəsi, TÜBİTAK ilə əməkdaşlıq ,Türk Dünyası Riyaziyyat Cəmiyyətinin fəaliyyəti, birgə keçirilən olimpiadalar, müxtəlif riyazi istiqamətli universitetlərə tələbə transferi məsələləri qeyd olunmuşdur.

***Açar Sözlər:*** *Təhsil, Riyazi Təhsil, Əməkdaşlıq, Layihələr*

**Azerbaijan and Turkey`s Joint Action and Innovations in Mathematical Education**

**Abstract:** In this article partnerships between two brotherly countries Azerbaijan and Turkey in education, especially mathematical education field and as a result of this collaboration innovations and innovative approaches obtained in mathematical education and successfully applied have been researched. The importance of science and education has been emphasized and the necessity of mathematical education for modern period has been noted. Agreements between Turkey and Azerbaijan in education field, responsibilities undertaken by both sides have been mentioned. In addition, Turkic educational institutions successfully operating in our country have been named, their contributions to our education have been reflected. In education the special importance of mathematical education has been emphasized, joint actions with Turkey in mathematical education, especially STEAM project, cooperation with Scientific and Technological Research Council of Turkey, activities of Turkish World Mathematical Society, held together Olympics, transfer of student issues to different mathematically oriented universities have been noted.

***Key Words**: Education, Mathematical Education, Cooperation, Projects*

## Giriş

Azərbaycan və Türkiyə arasındakı əlaqələr hər gün daha da genişlənir və güclənir.Bu əlaqələr digər sahələrdə olduğu kimi təhsil sahəsində də özünü göstərir. Qardaş ölkə ilə ortaq proyektlərdə riyazi təhsilin inkişafı, riyazi təhsildə yeniliklər və gənc kadrların riyaziyyata yönəldilməsi ilə bağlı məsələlər də prioritet sahəyə çevrilib və bu sahədə bir çox diqqətəlayiq addımlar atılıb.

Bu məqalədə Türkiyə və Azərbaycan arasında təhsildə, xüsusilə də riyazi təhsil sahəsində təcrübə mübadiləsi, birgə proyektlər, gənclərin bu sahədə fəaliyyətinin artırılmasına yönələn tədbirlər, riyazi təhsilin inkişafı ilə bağlı innovativ yanaşmalar öz əksini tapmış, tələbələrin biliklərinin mövcud vəziyyətinin müəyyənləşdirilməsi və onların təcrübə vasitəsilə yeni biliklərə yiyələnməsi, iki ölkə arasında tələbə mübadiləsi və bununla da inkişafa nail olmaq, riyaziyyata marağın artırılması məqsədilə riyazi təhsildə yenilikçi yaxınlaşmalar və bu uğurda atılan addımlar ilə bağlı həyata keçirilən tədbirlər araşdırılmışdır.

Riyaziyyatın tədrisində qardaş ölkə ilə birgə fəaliyyət və atılan addımlar, iki ölkə arasındakı təcrübə mübadiləsi kompleks tədris elementlərinin səviyyəli inkişafı üçün presedent yaradır. Birgə universitetlərin açılması, məktəb-lisey komplekslərinin yaradılması, olimpiada və yarışların keçirilməsi, beynəlxalq səviyyədə konfransların keçirilməsi də məhz bu qəbildəndir.

Tələbələrin bu cür yenilikçi imkanlara malik olmaları, eyni zamanda müxtəlif fəaliyyət proqramlarında iştirakı informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə elmin müasir nailiyyətlərinin tədqiqinə və müxtəlif sahələrdən olan biliklərin onların riyazi təcrübəsinin mövcud vəziyyətinə inteqrasiyasına zəmin yaradır. Bütün bunlar tələbələrin təhsil və peşəkar motivasiyasının artırılması, riyazi bilik və bacarıqların

* Bakı Avrasiya Universiteti, gveliyeva97@mail.ru.

DOI :10.30546/100981.1.2024.0208

mənimsənilməsinin keyfiyyətinin yüksəldilməsi və onların yaradıcı müstəqilliyinin artması imkanlarının yaranmasına gətirib çıxarır.

### 1. Azərbaycan və Türkiyə Arasında Təhsil Sahəsində Birgə Fəaliyyət və Əməkdaşlıq

İki ölkə arasındakı tarixi əlaqələr digər bütün sahələrdə olduğu kimi təhsil sahəsində də yüksək səviyyəli birgəfəaliyyət üçün uyğun zəmin yaradır. Bu istiqamətdə ilk addım Türkiyə ilə Azərbaycan SSR arasında imzalanan "Mədəni və elmi mübadilə müqaviləsi" proqramı ilə atılmışdır (1990). Beləliklə, Türkiyə və Azərbaycan həqiqi bir elm adamı, elmi nəşrlər, məlumat, mütəxəssis və heyət mübadiləsini qəbul etməkdə, Türkiyə hər il 12 ədəd lisans və lisansüstü araşdırma, magistr və doktorantura təqaüdü təminatını, Azərbaycan isə hər il 12 ədəd dil və araşdırma təqaüdü verməyi qəbul etməkdəydi (Mədəni və elmi mübadilə müqaviləsi, maddə 11-15). 3 may 1992 -ci ildə isə Bakıda iki tərəf arasında Təhsil - Təlim, Ekspertiza Xidmətləri, Texniki və Elmi Əməkdaşlıq Sazişi imzalandı (Səs, 5 oktyabr 2013).

Ölkəmizin qardaş Türkiyə ilə elm və təhsil ilə bağlı münasibətlərində Bakı Dövlət Universiteti özünəməxsus yerə malikdir və bu sahədə Bakı Dövlət Universitinin fəaliyyəti xüsusi vurğulanmalıdır. Bu əlaqələrin daha yüksək səviyyədə inkişafı üçün universitetimiz və Türkiyə universitetləri ilə daim qarşılıqlı görüşlər keçirilmiş və razılaşmalar əldə edilmişdir. 1990-cı ildə BDU-nun dəvəti ilə İzmirin Egey Universitetinin nümayəndə heyətinin Bakıya səfərində əsas məqsəd Azərbaycanla Türkiyənin ali məktəbləri arasında hərtərəfli əlaqələrin inkişafına yeni təkan vermək idi. Qonaqlar BDU ilə yanaşı Azərbaycanın digər təhsil müəssisələrində - Azərbaycan Dövlət Tibb Universitetində, Azərbaycan Dövlət Konservatoriyasında - də olmuş və Xalq Təhsili Nazirliyində qəbul edilmişdilər (Səs 2013, №191: 15). Hazırki dövrümüzdə BDU-nun Şərqşünaslıq fakültəsində tədris prosesində türk dili və filologiyası, türk dili tərcüməçiliyi geniş şəkildə tələbələrə çatdırılır. Universitetin jurnalistika fakültəsində də türk dili və ədəbiyyatı tələbələrə tədris edilir və bu sahədə biliklər tələbələrə dərindən mənimsədilir. Bu məqsədlə eyni zamanda sözügedən təhsil müəssisəsinin Asiya və Afrika ölkələri tarixi kafedrasında Türkiyənin tarixi keçmişi daha geniş miqyasda tədris olunur və tələbələrə mənimsədilir. Azərbaycan və Türkiyə arasında elmi sahəsində əməkdaşlığın gücləndirilməsində digər ali məktəblərimizin də rolu böyük və danılmazdır. İki ölkə arasındakı möhkəm təməl üzərində qurulmuş əlaqələr səbəbilə sonrakı illərdə də təhsil sahəsində əməkdaşlıq daha da güclənmiş və daha geniş çərçivəyə daxil edilmişdir.

Hal-hazırda ölkəmizdə bir çox türk təhsil müəssisələri fəaliyyət göstərir. Onlara nümunə olaraq, ön sıralarda Türk Anadolu Liseyi və Türk Dünyası Bakı Atatürk Liseyini göstərmək olar.

Bakı Türk Anadolu Liseyi Türkiyə Cümhuriyyəti Milli Təhsil Nazirliyi və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28 fevral 1992 tarixində imzalanan müqavilənin şərtləri əsasında 1993-1994 tədris ilində açılmışdır. Azərbaycan Respublikası Təhsil Nazirliyinə bağlı 174 nömrəli məktəbin dördüncü mərtəbəsində fəaliyyətə başlamışdır və 174 nömrəli məktəbin adı Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09.09.1999 tarixli və 689 saylı əmri ilə Bakı Türk Anadolu Liseyi olaraq dəyişdirilmişdir (Türkiyə Cümhuriyyəti Təhsil Nazirliyi, Bakı Türk Anadolu Liseyi).

Türk Dünyası Bakı Atatürk Liseyi, 1980'de qurulan Türk Dünyası Araştırmaları Vəqfi (TDAV) vasitəsilə Türk Dünyasının "Dildə, Fikirdə, İşdə Birliyi" yolunda təhsil, elm və mədəniyyət fəaliyyətləri həyata keçirən Prof. Dr. Turan Yazganın cəhdləri və Azərbaycan Respublikası Nazırlər Kabinetinin qərarı ilə 1992 - ci ildə açılmışdır və Türk Dünyası Bakı Atatürk Liseyində təlim - təhsil, Türkiyə Cümhuriyyəti Milli Təhsil Nazirliyinin təlim proqramı ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təlim proqramı birləşdirilərək təşkil olunur, cəmi 11 illik təhsilin ilk dörd ilində Türkiyədən təyin edilən sinif müəllimləri vasitəsilə Türkiyə Türkcəsi öyrədilən şagirdlər, sonrakı mərhələlərdə Türkiyə Türkcəsi ve

Azərbaycan Türkcəsiylə təhsillərinə davam edirlər (Türk Dünyası Bakı Atatürk Liseyi rəsmi saytı).

Yaxın bir zamanda Türkiyə - Azərbaycan Universitetinin açılması gözlənilir. Bu məqsədlə, Fevralın 19-da Ankarada Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub. Mərasimdə "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə-Azərbaycan Universitetinin yaradılmasına dair Anlaşma Memorandumu" da imzalanıb, bu sənədi Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və Türkiyənin Ali Təhsil Şurasının (Yüksek Öğretim Kurulu - YÖK) sədri Erol Özvar imzalayıblar (Azərbaycan müəllimi, 23 fevral 2024). Sözügedən ali təhsil müəssisəsində tədris dili türk və ingilis dili olacaq. Bina xarici universitetlərin də istifadəsinə veriləcək. Məsələn, Sorbon və ya Yel universitetləri proqram əsasında bu binada təhsil vermək istəsələr, onlar da sistemdə iştirak edə bilərlər (Report İnformasiya Agentliyi, 21 fevral 2024).

Qardaş Türkiyə Cümhuriyyəti ilə, bütün sahələrdə olduğu kimi, elm, təhsil, mədəniyyət və ədəbiyyatla bağlı əlaqələrimiz genişləndikcə, ötən yüzillikdəki 70 illik ayrılığın fəsadları da daha sürətlə ortadan qalxır, ölkələrimiz və xalqlarımız arasındakı münasibətlər inkişaf edir və beləliklə də qloballaşma dövründə Türk Dünyasının yeri möhkəmlənir (Ömərov, 2013: 15).

## 2. Riyazi Təhsildə Türkiyə ilə Birgə İnnovativ Layihələr

Təhsil insanlarda "davranış dəyişdirmə" prosesi olaraq ifadə edilir. Prosesin nəticəsində təhsilalanların davranışları da dəyişir. Bu dəyişmə insanı əhatə edən cəmiyyət və iqtisadi vəziyyətə, mədəniyyətə, mənəvi dəyərlərə və təhsilin inkişafına bağlıdır (Türkoğlu, 2012). Riyazi təhsil təhsilin mühüm bir qolu hesab olunur. Elm adamları peşələrini icra edərkən orta məktəb riyaziyyatı təməlli yüksək səviyyəli riyaziyyatdan istifadə edirlər. Elmin gücü onun riyaziyyatı istifadə dərəcəsi ilə ölçülür. Elmlər riyaziyyatın çəlik süzgəcindən keçmədən etibarlı olmazlar (Stevens, 1906-1973). Dünyada riyaziyyatla bağlı belə bir fikir formalaşıb ki, riyaziyyat bilməyən və ya riyaziyyatda zəif olan insan natamam hesab olunur. Riyaziyyatı yaxşı bilmək insanın məntiqi təfəkkürünün yaxşı olması deməkdir. Məntiqi təfəkkürü yaxşı olan insan isə istər siyasətdə, istərsə də həyatın digər sahələrində daha uğurlu olurlar və daha böyük nailiyyətlərə imza atırlar. Məhz bu səbəbdən təhsil müəssisələrində riyaziyyatın tədrisi, riyazi təhsilin innovativ istiqamətə yönəlməsi və bu sahədə əməkdaşlıqlar xüsusi önəm daşıyır. Riyazi biliklərin artırılması və tətbiqi bacarıqlarının yaradılması məqsədilə müxtəlif innovativ layihələr həyata keçirilir. Bu layihələrin reallaşdırılması fonunda Türkiyə və Azərbaycan arasındakı əməkdaşlıq da nəzərə çarpacaq dərəcədə özünün göstərir. Hazırki dövrümüzdə Türkiyənin demək olar ki bütün universitetlərində azərbaycanlı bir və ya bir neçə riyaziyyatçı və ya onların yetirmələri var. Bu sahədə Türkiyə ilə daim qarşılıqlı olaraq əməkdaşlıq edilir. Bu əməkdaşlığa nümunə olaraq STEAM layihəsi, TÜBİTAK ilə əməkdaşlıq, Türk Dünyası Riyaziyyat Cəmiyyətinin fəaliyyəti, birgə keçirilən olimpiadalar, müxtəlif riyazi istiqamətli universitetlərə tələbə transferi və başqalarını göstərmək olar.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və Təhsil Nazirliyinin Təhsil İnstitutunun dəstəyi ilə "STEAM Azerbaijan" layihəsi 2019-2020-ci tədris ilindən tətbiq olunur. Bu söz Science, Technology, Engineering, Art, Mathematics sözlərinin abreviaturasıdır. Bu layihə təhsilalanları bilavasitə həyata hazırlayır. Riyaziyyat, incəsənət, elm və texnologiyanı birləşdirir. Eyni zamanda təhsilalanlarda komanda ilə iş bacarıqları formalaşdırır. Türkiyədə də STEAM layihəsi uğurla tətbiq olunur. Bu istiqamətdə iki ölkə arasında beynəlxalq əməkdaşlıq qurulmuşdur. Azərbaycanlı müəllimlər bu məqsədlə təlimlərə cəlb edilmiş və qardaş Türkiyə Respublikasına ezam olunmuşdurlar. Bu təlimlərə təkcə Bakıdan deyil

ölkəmizin əksər bölgələrindən müəllimlər qatılmışdır. Əsas öncəlik isə Riyaziyyat, Fizika, Coğrafiya, Kimya, Biologiya, İnformatika ixtisaslarına verilmişdir. Təlimlər Bahçeşehir Kolleci və Universitetlərində STEAM proqramına uyğun modullar üzrə mütəxəssislər tərəfindən aparılmış, müəllimlər microbit, arduino, insansız uçan hava aparatları və onların idarə edilməsi, LEGO EV3, autodesk modulları üzrə bilik və bacarıqlara yiyələnmiş, 3D printer və CNC lazer kəsici cihazları ilə tanış olmuş və 3D ölçülü müxtəlif əşyalar çap etmişlər (Azərbaycan Müəllimi, 25.11.2022).

TÜBİTAK Türkiyədə elm və texnologiyanı inkişaf etdirmə, istiqamətləndirmə və insanları elmə yönəltməyi hədəfləyən qurumdur. Bu qurum ilə AMEA arasında 2013-cü ildən əməkdaşlıq edilir. Həmin ildən günümüzə qədər bir neçə ortaq müsabiqə elan olunmuşdur. Bununla yanaşı müasir dövrün tələblərinə uyğun prioritet mövzular üzrə elmi layihələr də həyata keçirilmişdir. Bu qurum müxtəlif mükafatlar da təqdim edir. Bu mükafatlardan biri də TÜBİTAK Elm mükafatıdır. Azərbaycanlı riyaziyyatçı alim, fizika-riyaziyyat elmləri doktoru, professor Arif Səlimovun 2016-cı ildə 1001- tədqiqat layihəsi (MFAG 116F220 "Diferansiyel geometrik yapıların lift problemleri") Türkiyə Dövlətinin Elmi və Texniki Araşdırmalar Komitəsinin (TÜBİTAK-ın) riyaziyyat sahəsində 2 qalib layihədən biri olmuşdur (Azərbaycan Respublikası, Elm və Təhsil Nazirliyi). Bu dəyərli azərbaycanlı riyaziyyatçı haqqında qısa bir haşiyəyə çıxıb onu da qeyd etmək lazımdır ki, görkəmli alim ümumilikdə Türkiyədə 4 dəfə müxtəlif dövlət qrantlarının qalibi olub. Onun Tenzor operatorları ilə bağlı yazdığı və bu mövzuda dünyada ilk sayılan elmi monoqrafiyası həm də ABŞ-ın "Nova Science Publishers" nəşriyatının "Mathematics Research Developments" seriyası üzrə çap olunub və "Amazon.com" kimi məşhur e-ticarət şirkətlərində böyük tirajlarla satışa çıxarılıb (525-ci qəzet).

Türk Dünyası Riyaziyyat Cəmiyyəti öz sıralarında Azərbaycan, Türkiyə, Rusiya, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Çin, ABŞ, Monqolustan və Avropa ölkələrindən olan riyaziyyatçıları birləşdirir. 1999-cu ildə yaradılmış cəmiyyətin ilk konqresi 1999-cu ildə Fırat Universitetində (Türkiyə, Elazığ), II konqresi 2007-ci ildə Sakarya Universitetində (Türkiyə, Adapazarı), III konqresi isə 2009-cu ildə Əl-Farabi adına Qazaxıstan Milli Universitetində (Qazaxıstan, Almatı) keçirilmişdir. (Azərbaycan Dövlət İnformasiya Agentliyi). IV konqres isə Bakı şəhərində Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun təşkilatçılığı ilə keçirilmişdir. Bu konqresə dünyanın 20 ölkəsindən iştirakçılar qatılmışdır.

Ölkəmizdə müxtəlif olimpiadalar təşkil olunur. Bu olimpiadaların əsas məqsədi şagird və tələbələrdə təhsilə maraq yaratmaq, onlarda özünə inam hissini artırmaq, müxtəlif fənlər üzrə fərqlənən və xüsusi istedada malik şagirdləri seçməkdir. Riyaziyyat olimpiadalarının keçirilməsi də şagirdlər və tələbələrdə riyaziyyata maraq yaradır. Bu eyni zamanda onların yeni biliklərə yiyələnməsi və müxtəlif bacarıqlar əldə etməsində müstəsna rol oynayır. Bununla yanaşı, olimpiadalarda təqdim olunan mükafatlar da şagird və tələbələrdə motivasiya yaradır və onları riyazi fəaliyyətə daha da istiqamətləndirir. Azərbaycanlı tələbələrin iştirak etdiyi bir çox beynəlxalq səviyyəli riyaziyyat olimpiadaların adlarını çəkmək mümkündür. Onlara misal olaraq Balkan Riyaziyyat Olimpiadası (BMO), Yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadası (JBMO), Türk Beynəlxalq Riyaziyyat Olimpiadası və digərlərinin adlarını çəkmək olar. Onların hər birinin özünəməxsus qaydaları və mükafatlandırma sistemi vardır. Beynəlxalq olimpiadalarda şagirdlərimiz və tələbələrimiz bir çox uğura imza atmışlar.Bu uğurlar sırasında ölkəmizdə fəaliyyət göstərən türk təhsil müəssisələrinin yetirmələrinin uğurlarının çoxluğu da təqdirəlayiqdir. Belə uğurların əldə olunması həm də Türkiyə ilə ortaq həyata keçirilmiş proyektlərin uğurlu nəticəsi kimi də qiymətləndirilə bilər. Bu eyni zamanda qardaş ölkə ilə təhsil sahəsində əməkdaşlığın ürəkaçan nəticəsidir və bu əməkdaşlığın nə dərəcə düzgün qərar olduğunun bir nömrəli göstəricisidir. Türkiyədə keçirilən bir sıra olimpiadalarda da şagirdlərimizin və tələbələrimizin bir çox uğurlu çıxışları

olmuşdur. Bu da ölkəmizdə riyazi biliklərin inkişafı və riyaziyyata olan marağın əsas göstəricisidir.

Dünyada ilk dəfə olaraq "Türk Beynəlxalq Riyaziyyat Olimpiadası" (Turkic International Mathematical Olympiad – TİMO) Gəncə şəhərində baş tutacaq Bu olimpiadada 3-cü sinifdən 11-ci sinfə qədər olan bütün şagirdlər iştirak edə bilərlər. Gəncədə qeyd olunan olimpiadanın 21 aprel tarixində keçirilməsi nəzərdə tutulub (Gəncə Dünya məktəbi, 30 mart). Türk Beynəlxalq Riyaziyyat Olimpiadasının keçirilməsində qarşıda duran bir nömrəli məqsəd Türk dövlətlərində təhsil alan şagirdlərin riyazi istedadını və qabiliyyətini üzə çıxarmaqdır. Eyni zamanda onlara Türkiyə və Avropanın qabaqcıl universitetlərində təhsillərini davam ettirmək, bununla da onların biliklərini daha da təkmilləşdirmək, eyni zamanda yeni biliklərə yiyələnmək, gələcək fəaliyyətləri üçün yeni - yeni imkanlar əldə etmək şəraiti yaratmaqdır . Olimpiadada iştirak edən məktəblilər əldə etdikləri nəticəyə uyğun olaraq, qızıl, gümüş və bürünc medallarla təltif olunacaqlar. Müxtəlif mükafatlarla təltif olunma onların motivasiyası və gələcək fəaliyyətləri üçün də müsbət xarakterli təsirlər göstərəcək. Olimpiadanın final mərhələsi Türkiyənin İstanbul şəhərində keçiriləcək. Birinci mərhələdə qalib olan və uğur qazanan bütün şagirdlər final mərhələsinə keçmək haqqı qazanacaq və keçiriləcək final mərhələsində ölkəmizi təmsil edəcəklər.

Antalya Riyaziyyat Olimpiadası da iki ölkənin riyaziyyat sahəsində təhsil əməkdaşlığında xüsusi qeyd edilməlidir. Bu olimpiada 1996 cı ildən təsis olunmuşdur. Olimpiada 23 may 2023-cü il tarixində Bakı şəhərində keçirilmişdir və prof. Dr. Mustafa Özdemir və prof. İlham Əliyevin kordinatorluğunda təşkil olunmuşdur (Banses Gazetesi, 06.06.2023). İlk dəfə olimpiadada 4 dildə iştirak məhz Bakı şəhərində keçirilən olimpiadada mümkün olmuşdur. Olimpiadaya böyük maraq olmuş və bir çox məktəblinin iştirakı təmin olunmuşdur. Əvvəlki illərdə də Bakıdan şəxsi imkanları hesabına Antalyaya gedib bu olimpiadada iştirak edən şagirdlər olmuşdur. Məhz yüksək tələb səbəbilə Olimpiadanın Bakıda keçirilməsi təşkil olunmuş və iştirak etmək istəyən şagirdlər üçün imkan yaradılması onlar üçün sevindirici hala çevrilmişdi.

Türkiyə olimpiada komandası ilk dəfə olimpiadada iştirak etdiyi bir neçə il ərzində kifayət qədər yaxşı və gözlənilən qədər uğurlu nəticə göstərə bilməmişdi. Türkiyə olimpiada komandasının inkişafı və hazırki səviyyəyə çatmasında Azərbaycan alimlərinin rolu böyükdür. Bu məsələ ilə bağlı bir çox azərbaycanlı elm adamının adını çəkmək olar. Lakin burada Azər Kərimovun adı xüsusi olaraq qeyd olunmalıdır. Azər Kərimov Türkiyə Riyaziyyat Olimpiada Komitəsinin rəhbəri və eyni zamanda Bilkent Universitetinin professorudur. Bu dəyərli elm adamı artıq 30 ilə yaxın müddətdir ki, Türkiyədə yaşayır və fəaliyyət göstərir. Azər Kərimov illərdir Türkiyə Olimpiadaları Komitəsinə rəhbərlik edir ki, həmin komitə Türkiyə Elmi və Texnoloji Araşdırma Qurumu (TÜBİTAK) tərəfindən dəstəklənir. Dəyərli elm adamı, Azərbaycanlı alim burada məktəblilər və tələbələr arasında riyaziyyat elminə marağı artırmaq məqsədilə bir sıra təşəbbüslərin müəllifidir. O 2001-ci ildən bu günə qədər hər ay riyazi məsələlər işləyib hazırlayır və internetdə yerləşdirir. Onun hazırladığı riyazi məsələlər yerli riyaziyyat həvəskarlarının diqqətini çəkməklə yanaşı həm də, dünyanın müxtəlif bölgələrindən olan riyaziyyat həvəskarlarının diqqətini cəlb edib. Azər Kərimov bütün bunlarla paralel olaraq, Türkiyənin hər yerini qarış-qarış gəzir, məktbəlilər və tələbələrlə müxtəlif görüşlər keçirir, onlarla riyaziyyat elmini sirlərini bölüşür, müxtəlif öyrədici söhbətlər aparır, seminarlar verir. Türkiyənin elmi dairələrində Azər Kərimovun xidmətləri yüksək qiymətləndirilir, türk mediası müxtəlif vaxtlarda onun işləri barəsində yazılar dərc edir. Türk mediası həm də onu dünya riyaziyyat elminin önəmli şəxsiyyətlərindən biri hesab edir. Günümüzdə bir çox riyaziyyatçı elm adamı Türkiyədə öz elmi fəaliyyətini davam etdirir. Onlardan Abdulla (Avey) Sofuyevin adını xüsusilə vurğulamaq lazımdır. Abdulla Avey Türkiyə Elmi və Texnoloji Araşdırma Qurumu (TÜBİTAK) tərəfindən təsis olunmuş 130-dan çox mükafata layiq görülmüşdür. Bu mükafatlar ona bir çox beynəlxalq

jurnallarda çap olunan məqalələrinə görə verilmişdir. Bu dəyərli alim eyni zamanda bir çox TÜBİTAK və NATO dəstəkli layihələrə də rəhbərlik etmişdir. O, 2019 və 2020-ci illərdə Stenford Universitetinin tərtib etdiyi dünyanın ən nüfuzlu elm adamları siyahısına daxil edilmiş və öz elm sahəsində dünyanın ən nüfuzlu 100 elm adamı siyahısında yer almışdır. Professor Abdulla (Avey) Sofoyevin nanokompozit və funksional materiallardan hazırlanan konstruksiyaların davranışları haqqında fundamental araşdırmaları davam edir və o, dünyada aparıcı elm adamlarından biri hesab olunur. Bu nüfuzlu elm adamı uzun illər Türkiyənin Süleyman Dəmirəl Universitetində fəaliyyət göstərmişdir. Vaxtaşırı olaraq ölkəmizə gəlmiş, müxtəlif universitetlərdə tələbələrlə görüşlər keçirmişd, seminarlar vermişdir.

Hazırda ölkəmizdə Türkiyə universitetləri ilə ortaq proyektlər kimi bir çox konqreslər keçirilir. Bu konqreslərdə iki ölkədən nümyəndələr iştirak edirlər. Hər iki ölkənin elm adamları müxtəlif məqalələrlə çıxışlar edir, fikir mübadiləsi edirlər. Bu fikir mübadilələri və çıxışlar isə həm elm sahəsində yeni nailiyyətlər əldə olunmasına, həm də gənc mütəxəssislər üçün yeni ideyaların, fikir və layihələrin yaranması və inkişafı üçün əlverişli imkanlar əldə olunması və münbit şərait yaranmasına gətirib çıxarır. Bu eyni zamanda onların şəxsi inkişafı üçün də əvəzolunmaz və müstəsna rol oynayır, gələcək fəaliyyətləri üçün yeni qapılar açır.

**Nəticə**

Belə nəticəyə gəlmək olar ki, təhsilin, xüsusilə də riyazi təhsilin ölkəmizdə inkişafı və bu sahədə həyata keçiriləcək yeniliklərlə bağlı qardaş Türkiyə ilə əməkdaşlıq, qarşılıqlı əlaqələr və həyata keçirilən ortaq proyektlər xüsusi rol oynayır. Türkiyə ilə qarşılıqlı əməkdaşlıq fonunda həyata keçirilən riyazi layihələr, iki ölkə arasındakı qarşılıqlı münasibətlər, yeni riyaziyyat təmaüllü məktəblərin və universitetlərin açılması, müxtəlif riyaziyyatla bağlı bilik yarışlarının keçirilməsi, ayrı-ayrı konqreslərin keçirilməsi və konfransların təşkili hər iki ölkənin təhsilinə böyük töhfələr verir və riyzazi təhsilin inkişafına kömək göstərir. Şagirdlər və tələbələrin müxtəlif olimpiadalarda iştirakının təmin olması və bununla da onların bilik səviyyələrinin aşkara çıxarılması nəticəsində fərqlənən təhsilalanların öz təhsillərini daha yüksək imkanlarla davam etdirməsi şansının yaranması, onlara yeni fəaliyyət imkanları yaradılması, gələcəkdə öz fəaliyyətlərini daha yüksək təhsil müəssisələrində davam etdirmək imkanının yaradılması təhsilalanları daha da ruhlandırır. Riyaziyyat sahəsində təhsilə innovativ yanaşmalar gəncləri bu istiqamətə yönəltməklə birlikdə elmin inkişafına da təkan verir.

**ƏDƏBİYYAT**


525-ci qəzet, https://525.az/news/77643-professor-arif-selimov-azerbaycan-riyaziyyat-mektebinin-layiqli-davamcisi

Azərbaycan Dövlət İnformasiya Agentliyi, https://azertag.az/xeber/turk_dunyasi_riyaziyyat_cemiyyetinin_nezeri_ve_tetbiqi_riyaziyyat_jurnalinin_teqdimati_olmusdur-479014

Azərbaycan müəllimi, 25.11.2022, https://www.muallim.edu.az/news.php?id=12593

Azərbaycan Müəllimi, https://www.muallim.edu.az/news.php?id=28394

Azərbaycan Respublikası, Elm və Təhsil Nazirliyi, https://www.imm.az/exp/2016/11/25/az%C9%99rbaycanli-riyaziyyatci-alim-arif-s%C9%99limovun-t%C9%99dqiqat-layih%C9%99si-tubitak-in-qalibi-olub/

Banses Gazetesi Antalya Matematik Olimpiyatı 4 dilde Azerbaycan'da gerçekleştirildi (bansesgazetesi.com).

Ömərov, Vahid "Azərbaycan-Türkiyə arasında elm və təhsil sahəsində əməkdaşlıq (1990-1992-ci illər)" məqalə

Report İnformasiya Agentliyi https://report.az/region-xeberleri/milliyyet-turkiye-azerbaycan-universiteti-yeni-nesil-universitet-olacaq/

Səs 2013, №191: 15, https://www.elibrary.az/docs/qazet/qzt2013_2071.pdf

Səs, 5 oktyabr 2013, https://sesqazeti.az/news/mia/369664.html
Stanley Smith Stevens, 1906-1973.
Türk Dünyası Bakı Atatürk Liseyi https://turan.org/td-baku-ataturk-lisesi/
Türkiyə Cümhuriyyəti Təhsil Nazirliyi, Bakı Türk Anadolu Liseyi, https://btal.meb.k12.tr/icerikler/okulumuzun-tarihcesi_14176694.html
Türkoğlu, A. (2012). "Karşılaştırmalı Eğitim Nedir?". *Karşılaştırmalı Eğitim Yansımaları* (Ed.: S. Aynal), s. 2-22, Ankara: Pegem Akademi.